# Dərələyəzin Aşıq Cəlil ozan məktəbi

**Dərələyəzin aşıq mühitinin söz-söhbəti deyilməklə-yazılmaqla qurtaran deyil. Ustad Aşıq Cəlillə bağlı kiçik bir fakt, hadisə də Sallıda və ətraf yerlərdə Qərbi Azərbaycandan sonuncu qovdu-qaçdıya qədər dildə-ağızda dolaşaraq yazılmamış bir dastana çevrilmişdi. Onun müşayiətçiləri, yetirmələri, Göyçəli Aşıq Ələsgərlə davamlı get-gəlləri və kədərli aqibəti Dərələyəzin çal-çağırlı ozan dünyasının unudulmaz səhifələri kimi hələ də yaddaşlarda yaşayır. Biz də yazırıq ki, bu ibrətli olmuşlar sənət tariximizə həkk olunsun. Onu da xatırladaq ki, Aşıq Cəlilin 150 illiyi 2018-ci ildə AMEA-da təntənə və saygı ilə qeyd edilmişdi.**

Aşıq Cəlilin bacısı nəvəsi Aşıq Mirzalının dediyinə görə, ustad el sənətkarının iki balabançısı olub. Cəlil aşıqlığa başlayan gündən uzun illər Həso (yəqin ki, Həsən) adlı balabançı ilə gəzib. O rəhmətə gedəndən sonra Keçəl Aydın adında balabançı ilə toy-düyünə gedərmiş. Qızı Miyana yesir aparılandan sonra Aşıq Cəlil daha toy-düyünə getməyib, sazı yerə qoyandan sonra isə onların yolları ayrılıb.

Görüşəndə Aşıq Mirzalı onu da demişdi ki, Keçəl Aydın Bərdə rayonunda yaşayşır, lakin kəndin adını xatırlaya bilmədi. Bərdənin İmirli kəndində yaşayan Əli əmim dəllək olduğundan çox adam tanıyırdı, Bərdənin elə bir kəndi olmayıb ki, orada məclislərə çağırılmasın. Bununla bağlı əmimə müraciət edəndə, hə, tanıyıram dedi, Gərənə kəndində yaşayır. Bir gün sonra əmimlə getdik Gərənəyə, evini soraqladıq, dedilər bir neçə il əvvəl rəhmətə gedib.

Aşıq Cəlil həm də bir neçə istedadlı şəyird yetirib. Aşığın oğlu Bəhmən, Sallı kəndindən Aşıq Qulu, Aşıq Bəhmən Mustafayev, Hors kəndindən Aşıq Qəhrəman, Millidərədən Aşıq Abbasqulu, Qaraxaçdan Aşıq Heydər (Aşıq Əşrəfin dediyinə görə "Heydəri" aşıq havasını şəyirdi Aşıq Heydərə həsr edib), Zincirlidən Aşıq Dədəkişi Cəlilin şagirdləri olublar. Bildiyimiz bunlardır və təbii ki, başqa adlar da var.

Yeri düşmüşkən onu da deyək ki, Hors kəndində Aşıq Qəhrəman, oğlu Aşıq Paşa və Aşıq Qəhrəmanın nəvəsi Aşıq Sultan da Dərələyəzdə tanınan aşıqlardan olublar. Horsda Aşıq Kərəm adında bir el sənətkarı və Şair Bayram adlı şeir-sənət vurğunu da yaşayıb. O vaxtlar aşıq Cəlil şəyirdi ilə "aşıqlar kursu"nu başa vurduqdan sonra onu da götürüb dostu, ustadlar ustadı Ələsgərin yanına gedərmiş. Ələsgər də cavan aşığı çəkçevirə salar, onunla deyişər, sınaq imtahanından uğurla şıxan cavanlara "aşıq" adı verərmiş.

Aşıq Cəlilin "Qəhrəmanı" havacatının yaranması da maraqlı tarixçə ilə bağlıdır. Hors kəndindən olan Qəhrəman bir neçə il idi ki, Aşıq Cəlilə qulluq eləyirdi. Vədə tamam olanda Qəhrəmanı da götürüb Göyçəyə üz tutur. Ağkilsəyə xəbər yayılır ki, Cəlil gəlib. Yavaş-yavaş camaat da yığılır. Əvvəl ustadlar çalıb-çağırır. Aşıq Cəlil bu məclisə gələnlərə sazda "əleyküməssalam" eləyirmiş, yəni "xoş gəldin" deyirmiş. Ələsgər bu yerdə gəlib Cəlilin barmaqlarından öpür, ağlayır:

– Oğul,– deyir, hayıf o barmaqlara ki, torpağa gedəcək.

Cəlil qayıdır ki:

– Ustad, o sözləri deyən, dastan bağlayan ustad torpağa getməyəcəkmi?

Ələsgər burada Cəlili qucaqlayır:

–İndiyə kimi dostuyduq, bu gündən olduq qardaş.

Ümumiyyətlə, Ələsgər kövrək adam imiş. Kiminsə onun ürəyincə çalmağını, oxumağını eşidəndə özünü saxlaya bilməz, ağlayarmış. O, qardaşı oğlu Növrəs İmanın çalğısını eşidəndə də ağlayarmış...

Cəlil meydanı Aşıq Qəhrəmana verir. Qəhrəman ustaddan 3 dəfə üzr istəyib "Məclis divanisi" çalır. Sonra "Osmanlı divanisi", ardınca da zil havalara keçir: "Misri", "Keşişoğlu",





"Koroğlu". Ələsgər bir çalanda Qəhrəman iki çalır. Görür ki, yox, elə bu, aşıqdı ki, aşıq. Yaxına gedib Qəhrəmanın üzündən öpür. Bu da imtahandan "əla" almaq demək idi.

Aşıq Cəlil məclisə girir. Yenə də təzə bir hava çalır. Camaat da elə bayaqdan gözləyirdi ki, Cəlil təzə nəsə çalmalıdır. Ələsgər də fikir verib görür ki, təzə havadır. Havanın adını soruşur.

Cəlil cavab verir ki:

–Ustad, havanı elə buradaca xamınnan çaldım.

Ələsgərin gözləri yaşarır:

–Oğul, söz xiridarı bizdə, havacat xiridarı sizdə. Qoy bu havacat da sənin bacarıqlı şəyirdin Qəhrəmana ad olsun.

Burada bir maraqlı faktı da demək lazımdır ki, Aşıq Ələsgəriin oğlu Beşirin toyunu Aşıq Cəlil edib. Bunu da Aşıq Mirzalı çatdırıb.

Bu yerdə tədqiqatçı alim, dostum Əli Şamilin adını çəkməmək ədalətsizlik olardı. Bir-birimizdən xəbərsiz – o da, mən də, təxminən, eyni vaxtda Aşıq Cəlilin sorağına düşmüşük. Hər ikimiz Aşıq Cəlilin dəfn olunduğu Naxçıvanın Məmmədrzabəy Dizəsi kəndinə getmişik – o, Naxçıvandan, mən Bakıdan. Mənə məşhur aşığın qəbrini tapmaq qismət olmadı, amma qabaqca buraya gələn Əli Şamil kənd ağsaqqalları ilə qəriblər mezarlığında qəbrin yerini müəyyənləşdirib. Aşıq Cəlilin qəbrində baş daşı yerinə dəmir parçası olub.

Mən həmin qəbiristanlığa gedəndə kənd ağsaqqallarını yığdıq qəbiristanlığa, dəmir parçası çıxarılmışdı deyə qəbrin yerini müəyyənləşdirmək mümkün olmadı. Mənə dedilər ki, hansısa insafsız kənd rəhbəri qəbiristanlığın bir tərəfini ev tikmək üçün yerli camaata verib. O ərazidə torpaq alan kənd sakini aşığın baş daşı yerinə qoyulan dəmir parçasını çıxarıb atıb və beləliklə, qəbir itib. Ağsaqqallar dedi ki, qəbir bax bu hasarın altında olmalıdır. Onlar Aşıq Cəlilin adını da unutmuşdular. Eləcə aşıq deyirdilər.

İllər sonra fəlsəfə doktoru Nazir Əhmədli Aşıq Cəlilin sorağı ilə Naxçıavna səfər etdikdən sonra "Facebook" sosial şəbəkəsində yazmışdı: "Üzə çıxardığım doğum tarixi (1868) qəbul edilmiş Dərələyəzli Aşıq Cəlillə bağlı əlavə məlumatlar toplamaq üçün getdiyim Naxçıvandan bu gecə qayıtmışam. Vəziyyət ürəkaçan deyil. Nəslindən yaşayan hələ heç kimi müəyyənləşdirə bilməmişəm, hamısı faciəli şəkildə ölüb. Kiçik oğlu Aşıq Bəhməni 1942-ci ildə cəbhəyə aparıblar və 1944-cü ildə qara kağızı gəlib. Uşağı olmayıb.

Aşıq Cəlilin faciəsi bununla da bitmir, qəbri yerləşən ərazini bir kənd sakini zəbt edib, qəbrin üstündə baş daşı olmayıb, amma yerini mənə göstərdilər. Qəriblər qəbiristanlığında basdırılıbmış. İndi onun qəbrinin bərpa edilməsi, üstündə heç olmasa baş daşının qoyulması uğrunda mübarizə aparacağam. Vətənpərvər ziyalılarımızı bu təşəbbüsü dəstəkləməyə dəvət edirəm".

Nazir Əhmədlinin "Filologiya məsələləri" (N2, 2018. s.309–323) jurnalında çap etdirdiyi "Dərələyəzli Aşıq Cəlilin soy-kökü" sərlövhəli məqaləsi Aşıq Cəlilin həyat və yaradıcılığının öyrənilməsi baxımından diqqət çəkir. Alimin tədqiqatlarından məlum olur ki, şair Təhməz və qardaşı Quləməli mənim ulu babalarımdır. Nədən ki, Quləməlinin adını mənə veriblər. Mənim 1 yaşına qədər adım Quləməli olub. Təxminən, 1 yaşında mən möhkəm xəstələnmişəm, Qəndab nənəm əhd eləyib ki, uşaq ölməsin, adını dəyişərik.

Belə bir inam olub ki, ad uşağa düşməyəndə onu dəyişmək lazımdır. Bunu o məqsədlə edirmişlər ki, guya, bu uşaq öldü, Allah başqasını verdi və təbii ki, adı da başqa olmalıdır. Mən də sağalmışam deyə adımı dəyişib ona oxşayan digər ad qoyublar – Qulu. Bununla belə kəndimizin ağsaqqalları Usub baba, Eylas kişi elə rəhmətə gedənəcən məni Quləməli deyə çağırırdılar.

Aşıq Cəlilin qardaşları Məhəmməd, Cabbar, Mahmud, bacısının adı isə Əsli olub. Məhəmməd, Cabbar və Mahmud Sallıda rəhmətə gedib.

Aşıq Cəlilin oğlanları – Xəlil, Aşıq Bəhmən, Bəhram; qızları – Miyana və Şəkər olublar. Şəkər Horsdan Əziz adlı oğlana ərə gedib. Uşaqları – Vəzir və Miyana olublar, göründüyü kimi, böyük bacısının adını qızına qoyub.

Xəlil Sallıda rəhmətə gedib. Aşıq Bəhmən Kültəpə kəndində evlənib, Kəblə Orucun qızını alıb, II Dünya müharibəsindən qayıtmayıb. Bəhram isə Kültəpədə ölüb.

Aşıq Cəlil iki dəfə evlənib, Uşaqlar birinci xanımı Qızxanımdan olub. Qızxanım cavan rəhmətə gedib, öləndə Cəlilin kiçik qızı Şəkər körpə olub. Cəlil ikinci dəfə Hors kəndindən Müşkənbər adlı qadınla evlənib, uşaqları ikinci qadın böyüdüb.

Aşıq Cəlilin o biri havalarının yaranma tarixçəsi hələlik məlum deyil. "Qaytarma" qəmli havasını isə 1917-ci ildə çalıb. Həmin ilin yayında Dərələyəzin sakit həyatına acılar, ağrılar qədəm qoyub. Camaat hər günü bəd xəbərlə qarşılayıb, acı kədərlə yola salıb. Cəlilin böyük oğlu Xəlilin bəd xəbəri isə bütün kəndin cızdağını çıxardıb. Arvadı Qızxanımın ölümündən sonra onsuz da özünə gəlməyən Cəlilin sinəsinə oğul dağı da çəkilib.

**Qulu KƏNGƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

Xalq qəzeti .- 2023.- 18 yanvar.- S.9.